AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AQRAR-EMAL SFERASININ İNVESTİSİYA MEXANİZMLƏRİNİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5304.01 – "İqtisadi fəaliyyət növləri"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Faruq Həmzə oğlu Ziyadov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Aqrar iqtisadiyyat və turizm işi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
Şəfa Tiflis oğlu Əliyev

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
Arzu Nəcəf oğlu Həsənov

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Esmira Canəli qızı Abdullayeva

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Gülnarə Sərxan qızı Cəfərova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
Ziyad Əliabbas oğlu Səmədzadə

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Samirə Yaşar qızı Məmmədova

Elmi seminarın sədri:

iqtisad elmləri doktoru, professor
Möhübbət Musa oğlu Hüseynov

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Müasir qlobal transformasiyalar, o cümlədən iqtisadi transformasiyalar yeni reallıqlar yaratmışdır və iqtisadi proseslərin təkmilləşdirilməsi, modernləşdirilməsi ön plana çıxmışdır.

Müasir dövrdə, xüsusilə 2020-2025-ci illərdə qlobal ərzaq qiymətlərinin dəyişməsinin aqrar-emal sferasının inkişafına, investisiya mexanizmlərinin təkmilləşdirilməsinə ciddi təsiri diqqət çəkir. Belə ki, qlobal şoklar, o cümlədən COVID-19 pandemiyasının təsiri, Rusiya-Ukrayna müharibəsinin taxıl ixracına yaratdığı çətinliklər, iqlim dəyişikliklərindən yaranan problemlər, həmçinin enerji və logistika ilə bağlı maneələr buna misal ola bilər. Digər tərəfdən, son illərdə gübrə və enerji qiymətlərinin bahalaşması öz növbəsində ərzaq qiymətlərinin bahalaşmasına gətirib çıxarmışdır. Bunlarla yanaşı, geosiyasi gərginliklər və logistika problemləri səbəbindən təhlükəsizlik, sığorta və daşınma xərclərinin artmasına səbəb olmuşdur.

Eyni zamanda, aqrar emal sferasında təchizat zəncirlərində pozulmalarla bağlı amillər bu sahədə davamlı tədqiqatları şərtləndirir. Belə ki, təchizat zəncirində baş verən pozulmalar xammal itkisinə səbəb olmaqla yanaşı, həm də qiymət dəyişkənliyinə və son məhsulun bazara vaxtında çatdırılması proseslərində problemlər əmələ gətirir. Məhsulun tez xarab olması və sərhəd-keçid məntəqələrindəki gecikmələr ərzaq məhsulları ilə təchizat prosesini əngəlləyən amillərdəndir. Beynəlxalq ticarət məhdudiyyətləri, münaqişələr, müharibələr və iqtisadi sanksiyalar ərzaq məhsulları xammallarının idxalını və ixracını xeyli çətinləşdirmişdir.

Qeyd edək ki, hazırda 2030-cu ilədək olan dövr üçün sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin reallaşdırılması intensiv mərhələdədir. Bu prioritetlər içərisində iqtisadiyyatın şaxələndirilməsi, yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi və qeyri-neftqaz sahələrinin sürətli inkişafı ön plandadır[1]. Bu prioritetlərin

[1]Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. AR Prezidentinin Sərəncamı. – Bakı, – 2 fevral 2021.

reallaşdırılması üzrə 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyası icra olunmaqdadır[2]. Digər tərəfdən, 2027-2030-cu illəri əhatə edən növbəti sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması üzrə işlər gedir. Ölkəmizdə iqtisadiyyatın şəffaflaşdırılması, maliyyə-investisiya təminatının gücləndirilməsi, sağlam rəqabət mühitinin yaradılması xüsusi diqqət mərkəzindədir. Yeni qəbul olunan Rəqabət Məcəlləsi bu istiqamətdə mühüm əhəmiyyət kəsb edir[3]

Digər önəmli bir məsələ qlobal çağırışlara uyğun şəkildə iqtisadi fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və yenilənməsidir. Artıq iqtisadiyyatın rəqəmsallaşdırılması və süni intellekt əsasında inkişaf etdirilməsi dövrün tələbi kimi çıxış edir. Ölkə Prezidentinin 16 yanvar 2025-ci il tarixli fərmanı ilə Rəqəmsal İnkişaf Konsepsiyası təsdiq olunmuşdur[4]. Bundan əlavə, yenə Ölkə Prezidentinin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə 2025-2028-ci illər üçün süni intellekt Strategiyası təsdiq edilmişdir[5]. Bütün bunlar iqtisadiyyatımızın müxtəlif sektorlarında, o cümlədən aqrar-emal sferasında yeni vəzifələr ortaya qoyur.

Eyni zamanda, 2020-ci il Vətən müharibəsində Qələbədən sonra sonra yaranmış yeni reallıqlar baxımından, aqrar-emal sferasının Qarabağ iqtisadi rayonunda və Şərqi Zəngəzur iqtisadi rayonunda daha məhsuldar fəaliyyət göstərmələrinə və ən yüksək texnologiyalar əsasında işlərini qurmalarına ciddi ehtiyac yaranmışdır. Hazırda əsas məqsəd işğaldan azad olunmuş ərazilərin kompleks və sistemli şəkildə dirçəldilməsi, bərpa işlərinin səmərəli təşkili üçün maliyyə-investisiya təminatının gücləndirilməsi mexnizmlərinin

[2]Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. // AR Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir. №3378].

[3]Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi. Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

[4]Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir.

[5]Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

yaradılmasından və tətbiq olunmasından ibarətdir.

Bu qeyd edilənlər fundamental araşdırmaları şərtləndirir, ilk növbədə ölkə iqtisadiyyatının mühüm əhəmiyyət kəsb edən sahələrindən biri olan aqrar sahənin inkişaf problemlərinin həllinin sürətləndirilməsi, onun aqrar-emal sferasının daha səmərəli fəaliyyət göstərmələri üçün investisiya mexanizmlərinin tənzimlənməsi problemlərini dərindən öyrənməyi və yeni, məhsuldar fəaliyyət mexanizmlərinin işlənməsini zəruri edir. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını ifadə edən amillərdəndir.

Mövzunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək istərdik ki, aqrar sahənin maliyyə-investisiya təminatı problemlərinin konseptual səviyyədə baxılması, öyrənilməsi, həmçinin aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi problemləri ilə əlaqədar ölkəmizin, eyni zamanda xarici ölkələrin alimləri məşğul olmuş və elmi əsərlər yazmışlar. Azərbaycanlı iqtisadçı-alimlərdən akademik Z.Ə.Səmədzadə, E.R.İbrahimov, E.A.Quliyev, B.X.Ataşov, A.Ş.Şəkərəliyev, Z.F.Məmmədov, V.H.Abbasov, İ.H.İbrahimov, R.Ə.Balayev, A.E.Quliyeva, E.M.Sadıqov, X.M.Hüseynova, Ş.T.Əliyev, M.C.Hüseynov, E.B.Məmmədova, E.Ə.İbrahimov, M.M.Hüseynov, M.A.İbrahimov, V.Ə.Qasımlı, R.Z.Hüseyn, V.İ.İsmayılov, V.İ.Bayramov, B.S.Əhmədov və başqaları aqrar sahənin inkişaf problemləri, o cümlədən maliyyə-investisiya mexanizmlərinin işlənməsi və tətbiqi, həmçinin, aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin tənzimlənməsi ilə bağlı olaraq tədqiqat əsərlərinin müəllifidirlər. Klassik iqtisadi məktəbin görkəmli yaradıcıları və nümayəndələri olmaqla, bir qrup xarici ölkə alimləri-tədqiqatçılarının elmi baxışlarında və əsərlərində maliyyə məsələləri, investisiyaların rolu və funksiyaları, sosial-iqtisadi əhəmiyyəti, müxtəlif iqtisadiyyat sahələrində investisiyaların əhəmiyyətinə toxunulmuşdur: A.Smit, A.Marşal, R.M.Solou, J.M.Keyns, M.E.Porter, R.Levin, M.U.Bayçorov, M.X.Qazeyev, M.A.Qriqel, O.V.Kiselyeva, İ.V.Sergeyev, E.A.Utkin, Z.A.Toboliç, A.İ.Fazraxmanova və digərlərinin elmi əsərlərində, o cümlədən dissertasiya işlərində və monoqrafiyalarında aqrar sahənin başlıca problemləri, maliyyə sabitliyi və investisiyaların cəlbi ilə bağlı problemlərin həll olunması, eyni zamanda aqrar-emal sferasının

investisiya mexanizmlərinin dövlət tərəfindən tənzimlənməsi, müasir reallıqlar baxımından daha işlək investisiya mexanizmlərinin hazırlanması, investisiya cəlbediciliyinin təmin olunması məsələləri öz əksini tapmışdır.

Bütün bunlara baxmayaraq, qlobal təhdidlər və son illərdə yaranan çətinliklər kontekstində yeni çağırışlar əsas götürülməklə, aqrar sahədə olan problemlərin həllinin sürətləndirilməsində mühüm əhəmiyyət kəsb edən maliyyə-investisiya təminatı mexanizminin təkmilləşdirilməsi, dünya təcrübəsi ilə uzlaşdırılması və aqrar-emal sferasının investisiya mexanizmlərinin dövrün tələblərinə uyğun tənzimlənməsi problemləri əlavə fundamental tədqiqatın aparılmasını tələb edir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti Azərbaycan Respublikasında fəaliyyət göstərən aqrar-emal sferası, bu sfera ilə əlaqəli fəaliyyət sahələri və təşkilatlardır. Tədqiqatın predmeti isə aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi istiqamətləri, bu mexanizmlərin təkmilləşdirilməsi məsələləri, üsul və vasitələridir**.**

Tədqiqatın məqsəd və vəzifələri. Dissertasiya işinin məqsədi aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsinin nəzəri-metodoloji əsaslarını və mövcud vəziyyətini araşdırmaq, mövcud problemləri müəyyənləşdirmək və həmin mexanizmlərin təkmilləşdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Bunun üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və dissertasiyanın strukturuna uyğun olaraq yerinə yetirilmişdir:

- aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsinin nəzəri-metodoloji əsasları, forma və metodları yeni tələblər baxımından təhlil edilmişdir;
- aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsinin metodoloji xüsusiyyətləri araşdırılmışdır;
- aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsinə dair dünya təcrübəsi öyrənilmişdir;
- ölkəmizdə aqrar-emal sferasının inkişaf proseslərinin mövcud vəziyyətinin təhlili aparılmışdır;
- aqrar-emal sferasında investisiya mexanizmləri təhlil olunmuş

və qiymətləndirilmişdir;
- aqrar-emal sferasında investisiya mexanizmlərini tənzimlənməsini vacib edən məsələlər baxılmışdır;
- investisiya mexanizmlərinin təkmilləşdirilməsinə dair qanunvericilik bazasının möhkəmləndirilməsi məsələləri oyrənilmişdir;
- aqrar-emal sferasının investisiya cəlbediciliyinin artırılması istiqamətləri araşdırılmışdır;
- aqrar-emal sferasının investisiya mexanizmlərinin müasir çağırışlara, o cümlədən işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi prioritetlərinə uyğun olaraq tənzimlənməsi məsələləri araşdırılmışdır.

Tədqiqat metodları. Tədqiqat zamanı sistem və kompleks yanaşmadan, müqayisəli təhlildən, iqtisadi-statistik, analiz və sintez metodlarından, dinamika sıralarının təhlilindən, analitik-hesablama metodundan, eyni zamanda, iqtisadi təhlilin müasir üsul və vasitələrindən istifadə olunmuşdur. Nəzəri-metodoloji yanaşmalar müəyyənləşdirilərkən aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi üzrə Azərbaycan və xarici ölkə alimlərinin əsərlərinə istinad olunmuşdur. Bunlarla bərabər, tədqiqat işinin gedişində Azərbaycanda aqrar-emal müəssisələrində investisiya mexanizmlərinin dövlət tənzimlənməsi üzrə qanunlardan və normativ-hüquqi aspektdə olan qaydalardan, digər sənədlərdən, həmçinin ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarının və mərkəzlərinin metodoloji materiallarından istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar. Tədqiqatın elmi yenilikləri və alınmış nəticələri kontekstində növbəti bir qrup əsas müddəalar müdafiəyə çıxarılır:

- qlobal təhdidlər və yeni tələblər şəraitində ölkənin aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsinə ciddi ehtiyac yaranmışdır;
- dövrün reallıqlarına uyğun olaraq aqrar-emal sferasının mövcud olan investisiya mexanizmlərinin və alətlərinin əsaslı şəkildə tənzimlənməsi və metodoloji baxımdan təkmilləşdirilməsi qaçılmaz bir prosesdir;
- investisiyaların formalaşdırılması, cəlb edilməsi və istifadə

olunması proseslərinin səmərəliliyinin artırılmasında həll olunmamış problemlər var;

- aqrar-emal sferasının investisiya fəaliyyətinin gücləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, bu istiqamətlərdə dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin müəyyənləşdirilməsini özündə əks etdirən göstəricilər sisteminin, prinsiplərin və qiymətləndirmə mexanizmlərinin işlənməsinə ehtiyac var;
- Azərbaycanda ərzaq təhlükəsizliyinin gücləndirilməsində strateji rola malik olan aqrar sahənin fəaliyyətinin daha səmərəli təşkilində önəmli funksiyaları yerinə yetirən aqrar-emal sferasının maliyyə-investisiya mexanizmlərinin etibarlılığının və işləkliyinin yüksəldilməsi zərurəti yaranmışdır;
- Böyük Qarabağ Zəfərindən sonra işğaldan azad olunmuş ərazilərdə aqrar-emal sferasının yaradılması və inkişaf etdirilməsi zərurəti əhəmiyyətli səviyyədə artmışdır.

Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- ✓ müasir qlobal çağırışlar əsas götürülməklə, aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsini labüd edən amillər dəqiqləşdirilmiş və əsaslandırılmışdır;
- ✓ obyektiv reallıqlar kontekstində aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi tədbirləri müəyyənləşdirilmiş və onların səmərəlilik məsələlərinə nəzəri yanaşmaların blok-sxemi verilmişdir;
- ✓ aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsinin metodoloji xüsusiyyətləri tədqiq edilmiş və elmi arqumentlərə söykənmiş metodoloji baza hazırlanmışdır;
- ✓ investisiya fəaliyyətinin səmərəliliyinin artırılmasından və investisiya cəlbediciliyinin yüksəldilməsi prioritetlərindən yanaşmaqla, aqrar-emal sferasında investisiya mexanizmlərinin qiymətləndirilməsi prinsipləri və meyarları müəyyənləşdirilmişdir;
- ✓ yeni çağırışlar şəraitində aqrar-emal sferasının investisiya mexanizmlərinin cəlbediciliyi problemləri araşdırılmış və mövcud investisiya mexanizmlərinin cəlbedicilik səviyyəsinin qiymətləndirilməsi alqoritmi hazırlanmışdır;

- ✓ aqrar-emal sferasının investisiya cəlbediciliyinin inteqral göstəricisi və reytinq əmsalı düsturları işlənmişdir;
- ✓ Azərbaycanda aqrar sahənin strateji əhəmiyyətindən çıxış etməklə, aqrar-emal sferasının investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətləri müəyyənləşdirilmişdir;
- ✓ strateji yol xəritəsinin hədəflərindən irəli gələn vəzifələrə uyğun olaraq, aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi yolları verilmiş və əsaslandırılmışdır;
- ✓ müasir çağırışlar və obyektiv reallıqlardan, həmçinin işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi prioritetlərindən yanaşmaqla, aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsi üzrə Fəaliyyət Strategiyasının tərkib hissələri verilmiş və təkliflər hazırlanmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri əhəmiyyəti işdə verilən və alınan elmi nəticələrdən istifadə edilməsi bütövlükdə aqrar sahənin inkişafının sürətləndirilməsinə, ilk növbədə aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsinə, daha təsirli tədbirlərin görülməsinə imkan verə bilər. Tədqiqatın praktiki əhəmiyyəti isə aqrar-emal sferasının investisiya mexanizmlərinin müasir dövrün çağırışlarına və tələblərinə uyğun şəkildə hazırlanması hesabına, aqrar-emal sferasının səmərəliliyinin yüksəldilməsi və bu istiqamətdə dövlət dəstəyi mexanizmlərinin maksimum dərəcədə səmərəli fəaliyyətinə nail olunmasından ibarətdir. Dissertasiyada yer almış elmi-nəzəri müddəalardan dərsliklərin, dərs vəsaitlərinin hazırlanmasında istifadə etmək olar.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin mövzusu Azərbaycan Kooperasiya Universiteti "Maliyyə və bank işi" kafedrasının elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olaraq seçilmişdir.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 10 məqalə və 7 tezisi (onlardan 2 məqalə və 1 tezisi xaricdə) Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc olunmuşdur. Tədqiqatın əsas müddəaları "Müasir dövrdə aqrar-emal sferasının investisiya mexanizmlərinin təkmilləşdirilməsi problemləri" (Bakı, 2018), "Aqrar-emal müəssisələrində məhsul

istehsalının artımında investisiyaların rolu" (Bakı, 2018), "Müasir dövrdə aqrar-emal müəssisələrində investisiya cəlbediciliyinin yüksəldilməsi problemləri və həlli istiqamətləri" (Bakı, 2019), "Azərbaycanda aqrar-emal müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində investisiya cəlbediciliyinin aktual aspektləri" (Sumqayıt, 2020), "Pandemiya və postpandemiya dövründə aqrar-emal müəssisələrinin logistika infrastrukturunun gücləndirilməsinin əhəmiyyəti" (Sumqayıt, 2020), "Стратегические вопросы совершенствования инвестиционных механизмов предприятий агропереработки Азербайджана в новых условиях" (Москва, 2021), "Aqrar-emal müəssisələrində investisiya siyasətinin innovativ yanaşmalar əsasında formalaşdırılması" (Bakı, 2025) adlı tezislərdə öz əksini tapmışdır.

Bundan əlavə, iddiaçının "Aqrar-emal müəssisələrində investisiya mexanizmlərinin tənzimlənməsi problemləri və istiqamətləri" (Bakı, 2018), "Aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi yolları" (Bakı, 2018), "Важность совершенствования основных механизмов инвестиционной привлекательности предприятий агропереработки в Азербайджане" (Philadelphia, 2018), "Aqrar-emal müəssisələrinin investisiya cəlbediciliyinin yüksəldilməsi yolları" (Bakı, 2018), "Aqrar-emal müəssisələrində investisiya mexanizmlərinin qiymətləndirilməsi məsələləri" (Bakı, 2018), "Qlobal maliyyə çağırışları şəraitində aqrar-emal müəssisələrinə investisiya mühitinin təkmilləşdirilməsinə strateji yanaşmalar" (Bakı, 2019), "Azərbaycanda strateji yol xəritəsi kontekstində aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin gücləndirilməsi istiqamətləri" (Bakı, 2019), "Aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin tənzimlənməsinin nəzəri əsasları və metodoloji xüsusiyyətləri" (Bakı, 2019) və "Актуальные проблемы регулирования инвестиционных механизмов предприятий агропереработки Азербайджана" (Москва, 2020), "Kənd təsərrüfatı emalı müəssisələrində investisiya siyasətinin innovativ modernləşdirilməsi" (Bakı, 2026) adlı məqalələri dərc olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Azərbaycan Kooperasiya Universiteti.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Giriş (14898 işarə), I fəsil (85116 işarə), II fəsil (54416 işarə), III fəsil (57576 işarə), nəticə (11087 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (24558 işarə) üzrə ümumi həcm 259410 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 223093-dür.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"**ində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin ümumi həcmi yer almışdır.

Dissertasiyanın "**Aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsinin nəzəri-metodoloji əsasları"** adlı **birinci fəslində** aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsinin nəzəri məsələləri, aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsinin metodoloji xüsusiyyətləri və investisiya mexanizmlərinin tənzimlənməsi üzrə dünya təcrübəsi araşdırılmışdır.

Qeyd edək ki, kapitalın, maliyyə resurslarının və investisiyaların səmərəlilik problemləri, bu resursların axın proseslərinin tənzimlənməsi, səmərəli istifadə olunması, iqtisadi proseslərə cəlb olunan resursların məhsuldar istifadəsi iqtisad elminin inkişafının bütün mərhələlərində aktual olaraq diqqət çəkmişdir. A.Smit hesab edirdi ki, *"Ayrı-ayrı şəxsin kapitalının yalnız illik gəlir və ya mənfəətdən qənaət edilən məbləğ qədər artdığı kimi, ayrı-ayrı şəxslərin kapitalının cəminə bərabər olan bütün cəmiyyətin kapitalı da bu yolla artırıla bilər"*[6]. Bu yolla, klassik iqtisadi məktəbin banisi kapitalla bağlı məsələlərdə daha diqqətli olmağın, onun hərəkəti, istifadəsi mexanizmlərinin təşkili üzrə problemlərə optimal

[6]Smith, A. Wealth of Nations, edited by C.J. Bullock. Vol. X. The Harvard Classics.New York: P.F. Collier & Son, 1909–14; Bartleby.com, 2001.–p.76

yanaşmağın vacibliyini göstərmişdir. A.Marşall isə bildirirdi ki, *"real həyatda kapitala aid olan hallarla, kapitala aid olmayan hallar arasında dəqiq fərq yoxdur"*[7]. Burada müəllif kapitalın istifadəsi, kapitallaşma və onun yaratdığı dəyərin sərhədləri, trayektoriyası üzrə olan problemləri, gözlənilməz halları nəzərdə tuturdu. R.M.Solounun iqtisadi artımla və iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsində tələb olunan tədbirlərin sistemli şəkildə həyata keçirilməsinə dair fikirlərində *"maliyyə resurslarının və investisiyaların əhəmiyyətli rolunun olduğu"* bildirilmişdir[8] Bu məsələdə, görkəmli iqtisadçı ilə razılaşmamaq qeyri-mümkündür və həmin fikirlər son onilliklərdə daha çox aktuallığı ilə yadda qalmışdır. Bu amillərin dəyərləndirilməsi ilə bağlı görkəmli iqtisadcı C.Keyns hesab edirdi ki, *"resurs potensialından, o cümlədən maliyyə-investisiya resurslarından istifadə edilməsi və tənzimlənməsində münasibətlər müəssisələrlə dövlət arasında, müəssisələrin öz arasında, müəssisədaxili işçilərlə mülkiyyətçilər arasında formalaşma proseslərdir və onların hər birinin təsiri nəzərə alınmalıdır"*[9].

Klassik iqtisadçılardan A.Smit, A.Marşal, R.Solou və C.Keynsin iqtisadi nəzəriyyələrinin aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi ilə bağlılığı baxımdan bir qrup məsələlərə diqqət yetirmək istərdik. A.Smitə görə investisiyalar təbii olaraq ən yüksək mənfəət gətirən sahələrə yönəlir. Lakin o, daxili bazarda kənd təsərrüfatına kapital qoyulmasının ölkənin uzunmüddətli sabitliyi üçün mühüm olduğunu qəbul edirdi. Digər tərəfdən, aqrar-emal sferası digər sənaye sahələrinə nisbətən sərbəst bazar rəqabətində zəif mövqedə durur. Bu baxımdan, kapitalın başqa yüksək mənfəətli sahələrə axınının qarşısını almaqdan ötrü xüsusi investisiya tənzimlənməsi mexanizmləri tətbiq olunmalıdır. A.Smitin azad rəqabət nəzəriyyəsinə görə, dövlət bazarda inhisarçılıq meyillərini aradan qaldırmalıdır. Bu vəziyyətdə aqrar-emal

[7]Маршалл, А. Принципы экономической науки. Т.1. Москва: Прогресс, 1993. – с.51.

[8]Solow, R.M. A Contribution to the Theory of Economic Growth// The Quarterly Journal of Economics. 1956. February Vol.70, No.1. p. 71.

[9]Keynes, J.M. The General Theory of Employment, Interest and Money. Palgrave Macmillan. 2007.– p.136.

sferasında investisiya cəlbediciliyinin artırılması üçün aqrar xammal istehsalçıları ilə emal sənayesi müəssisələri arasında qiymət pariteti təmin olunmalıdır. Belə ki, inhisarçı subyektlər tərəfdindən xammal qiymətlərinin süni şəkildə azaldılması aqrar sferaya investisiya yatırılmasını stimullaşdırmaq əvəzinə, kapitalın bu sektordan axınına səbəb ola bilər.

Bizə görə, qeyri-neft sektorunun ayrı-ayrı sahələrinin, xüsusilə, kənd təsərrüfatı və aqrar-sənaye kompleksinin investisiya cəlbediciliyinin artırılması məsələləri kifayət qədər aktual olaraq qalmaqdadır və aqrar-emal müəssisələri də bu sırada istisna təşkil etmirlər. Xüsusilə, bu sahənin və onun müəssisələrinin daha səmərəli fəaliyyət göstərməsində investisiyaların, maliyyə-kredit resurslarının müstəsna rolu vardır. Akademik Ziyad Səmədzadə qeyd edir ki, *"güzəştli kreditlər hesabına aqrar sektor üzrə texnologiyalara əsaslanan layihələrin maliyyələşdirilməsi ilə istifadəyə verilmiş və tikintisi davam etdirilən müəssisələr hesabına kənd təsərrüfatı məhsullarının istiehsalı, emalı və saxlanılması imkanları daha da genişlənir. Bütün bunlar aqrar sektorun ildən-ilə potensialının möhkəmlənməsinə xarakterizə edir"*[10]. Biz də bu fikirdəyik ki, məhz aqrar sferanın potensialının reallaşdırılmasında, onun emal müəssisələrinin məhsuldar və səmərəli fəaliyyət göstərməsində investisiya-maliyyə mexanizmləri önəmli funksiyaları yerinə yetirir. Bunlarla bərabər, iqtisadiyyatın indiki durumunda, xüsusilə aqrar bölmədə iqtisadiyyatı yüksəltmək, onun dünya inteqrasiyasına qoşulmasını təmin etmək üçün külli miqdarda investisiya vəsaitinə ehtiyac yaranmışdır. Məlumdur ki, aqrar sahənin fasiləsiz və səmərəli fəaliyyəti üçün xammal təminatı kənd təsərrüfatının müxtəlif istiqamətində formalaşır. Haqlı olaraq prof. E.A.Quliyev qeyd edir ki, *"kənd təsərrüfatı sahələrinə yatırılan investisiyalar iqtisadi inkişaf və tərəqqi üçün əsas amillər kimi diqqət çəkirlər. Bu sahədə yatırılan investisiyaların səmərəliliyinin təmin edilməsi üçün bütün amillər, o cümlədən prioritet fəaliyyət sahələrinin ən xırda detalları belə dərindən öyrənilməli və obyektiv olaraq*

[10]Səmədzadə, Z.Ə. Azərbaycan iqtisadiyyatı 100 ildə. IV cild. – Bakı: Letterpress nəşriyyat evi, – 2021. – s.145.


qiymətləndirilməlidir"[11] Əlavə edək ki, investisiyaların davamlı şəkildə yönəldilməsi son nəticədə istehsal və emal proseslərinin səmərəliliyinə müsbət təsir edir, yeni texnologiyaların transferinə və tətbiqinə imkan verir. Aqrar sahədə investisiyaların cəlb edilməsi bu sahənin inkişafına multiplikativ təsir göstərməklə bərabər, daha dayanıqlı inkişaf mexanizmlərinin hazırlanmasına imkan verir. Əməkdar elm xadimi, professor B.X.Ataşov bildirir ki: *"daxili və xarici investisiyaların intensiv olaraq iqtisadiyyata yönəldilməsini təmin edən sivil maliyyə bazarının formalaşması zərurətə çevrilmişdir. Belə ki, bazar münasibətlərinin digər alətləri kimi maliyyə bazarının yetərli səviyyədə inkişafı bütövlükdə iqtisadiyyatın inkişafına təkan verir"*[12]. Bizə görə, müəllif xeyli haqlıdır, çünki maliyyə bazarının dinamikliyi və manevr qabiliyyətinin yüksək olduğu şəraitdə investisiya resurslarına əlçatanlıq imkanları artır və investorlar az baryerlərlə üzləşirlər. Şübhəsiz, investorlara etimadın güclü olmasında qanunvericilik bazasının təkmilliyi müstəsna rol oynayır və biz qanunvericiliklə bağlı mühüm məqamları ayrıca olaraq irəlidə baxacağıq.

Aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi və onların səmərəlilik məsələlərinə yanaşmaların blok-sxemini sxem 1-də vermişik.

Sxem 1-dən yanaşdıqda, belə bi fikir irəli sürmək mümkündür ki, müasir dövrdə ölkəmizin aqrar-emal sferasında investisiya mexanizmlərinin təkmilləşdirilməsi üçün daha çox işlər görülməli və xüsusilə, investisiya cəlbediciliyinin artırılması məsələlərinə ciddi önəm verilməli, potensial investorlarla məqsədli işlər aparılmalı, əlaqələr gücləndirilməli və tətbiq olunan dövlət dəstəyi mexanizmlərinin səmərəliliyi xeyli artırılmalıdır.


[11]Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. – Bakı: Kooperasiya nəşriyyatı, 2018. – s.76.

[12]Ataşov, B.X. Maliyyə bazarları. / B.X. Ataşov – Bakı: Kooperasiya nəşriyyatı, 2016. – 456 s.



Sxem 1. Aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi və onların səmərəlilik məsələlərinə nəzəri yanaşmaların blok-sxemi
Mənbə: müəllif tərəfindən hazırlanmışdır.

Sxem 2-də müasir dövrdə aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsinin metodoloji xüsusiyyətlərinin blok-sxemini vermişik.



Sxem 2. Müasir dövrdə aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsinin metodoloji xüsusiyyətlərinin blok-sxemi

Mənbə: müəllif tərəfindən hazırlanmışdır.

Aqrar-emal sferasında investisiyaların stimullaşdırılması üzrə beynəlxalq təcrübə nümunələrinin Azərbaycanda tətbiqi ilə bağlı qeyd edə bilərik ki, ABŞ, Almaniya, Fransa, İsrail, Türkiyə, Çin və

Braziliyanın aqrar-emal sənayesində investisiyaların stimullaşdırılması təcrübəsi təhlil olunmuş və Azərbaycan şəraitinə uyğunlaşdırıla biləcək konkret tənzimləmə, maliyyə və texnoloji mexanizmlərlə əlaqədar fikirlər ifadə olunmuşdur. Hesab edirik ki, ABŞ-ın bu sahədə təcrübəsindən bəhrələnmək məqsədilə ABŞ Tədarük Menecmenti Agentliyi vasitəsilə emalçıların xammal tədarükü risklərini subsidiyalaşdırılmış sığorta proqramları ilə qoruması mexanizmlərindən istifadə edilməsi faydalı ola bilər. Bundan əlavə, özəl vençur kapitalının aqrar-emal sferasına cəlb olunması mexanizmləri diqqət çəkir. Almaniya təcrübəsindən bəhrələnməkdə isə fikrimizcə, aqrar-emal müəssisələrinin birbaşa fermer kooperativlərinə məxsus olması onların investisiya cəlb ediciliyini artırır. Digər tərəfdən, Almaniya dövləti regional aqrar-emal klasterlərinin qurulmasına infrastruktur xərclərinin 50%-ni qrant formasında maliyyələşdirir. Fransada tətbiq olunan indeksasiya edilmiş investisiya təşviqi və ailə fermer-emalçı bizneslərinə vergi rüsumlarının ləğvi mexanizmindən istifadə olunması məqsəduyğundur. Kənd təsərrüfatının yüksək səviyyədə inkişaf etdiyi İsraildə isə Aqrotexnoloji vençur fondlarının yaradılması təcrübəsi daha çox maraq doğurur. Türkiyədə Aqrar ixtisaslaşmış mütəşəkkil sənaye zonalarının fəaliyyət mexanizmləri ölkəmizin aqrar-emal sənayesi üçün maraq doğurur. Bu qurumlarda emal avadanlıqlarının alınmasına 50 % qrant dəstəyi göstərilir. Çində isə Sənaye investisiya fondları və ağıllı logistika zəncirinin üstünlüklərindən Azərbaycanda istifadə edilməsi fayda gətirə bilər. Braziliyada aqrar emal müəssisələri üçün güzəştli kredit proqramları tətbiq olunmuşdur və burada əsas məqsəd aqrar-emal müəssisələrinin modernləşdirilməsi, həmçinin texnoloji yenilənməsindən ötrü inflyasiyadan aşağı faizlə uzunmüddətli kredit resurslarının verilməsi mexanizmi vardır. Məhz , belə bir mexanizmin Azərbaycanın aqrar emal sferasında tətbiqinə ciddi ehtiyac duyulur.

İşin **"Azərbaycanda aqrar-emal sferasında investisiya mexanizmlərinin inkişaf səviyyəsinin təhlili və qiymətləndirilməsi"** adlı **ikinci fəslində** ölkədə aqrar-emal sferasının inkişaf proseslərinin mövcud vəziyyəti təhlil olunmuş və onun müəssisələrində investisiya mexanizmlərinin təhlilindən


yanaşmaqla qiymətləndirilmə aparılmış və aqrar-emal sferasında investisiya mexanizmlərinin tənzimlənməsini şərtləndirən amillər müəyyənləşdirilmiş və qiymətləndirilmişdir.

Aqrar-emal sferasının inkişaf prosesləri səviyyəsinin və bu sahəyə yatırılan resurslardan istifadənin səmərəlilik məsələlərinin daha real baxılması və qiymətləndirilməsi üçün mühüm göstəricilər üzrə təhlillərin aparılması vacib şərtlərdəndir. Ölkəmizin aqrar sferada və onun müəssisələrində inkişaf proseslərinin mövcud vəziyyətinin baxılması məqsədilə bir qrup göstəricilərin təhlilini vermişik.

Qrafik 1-də Azərbaycanda 2010-2024-cü illərdə kənd təsərrüfatı məshullarının həcminin ümumi dinamikası təhlil olunmuşdur. Buradan göründüyü kimi həmin dövr ərzində ölkəmizdə kənd təsərrüfatının ümumi məhsul istehsalı 2 dəfədən çox artmış və 2024-cü ilin yekununda 13 mlrd. manata yaxın olmuşdur.

Ölkə ÜDM-də kənd təsərrüfatı və aqrar sektorun ümumilikdə xüsusi çəkisi 2011-2024-cü ildə o qədər də artmamışdır və bu rəqəm 2011-ci ildə 5,1 % təşkil etmişdirsə, 2020-ci ildə 6,7 %, 2024-cü ildə isə 5,7% səviyyəsində qərarlaşmışdır. Fikrimizcə, kənd təsərrüfatının ölkə ÜDM-də xüsusi çəkisinin artırılması istiqamətində böyük ehtiyatlar və potensial vardır və bunlardan yetərincə istifadə edilməsində aqrar-sənaye müəssisələrinin rolunun əhəmiyyətli səviyyədə artırılması vacibdir.


Qeyri-neft sektorunda aqrar-emal sferasının payı və strateji rolu ilə bağlı bir qrup məsələlərə toxunmaq maraqlı olardı. Belə ki, ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılması və diversifikasiyalaşdırılması baxımından qeyri-neftqaz sektoru maksimum prioritetlik təşkil edir. 2025-ci ilin statistik məlumatlarına görə ölkə ÜDM-nin 72 %-ə qədəri qeyri-neftqaz sektoru məhsulları və xidmətləri hesabına formalaşır. Bu strukturda kənd təsərrüfatının payı təqribən 9 %-ə qədərdir. Ümumilikdə kənd təsərrüfatı və onun emal sahələrinin qeyri-neft ÜDM-də payı 10% təşkil edir. Qeyri-neft sektoru ixracının strukturunda aqrar və aqrar-emal məhsullarının payı 34 % səviyyəsindədir.



Qrafik 1. Azərbaycanda 2010-2024-cü illərdə kənd təsərrüfatı məshullarının həcminin ümumi dinamikası, mln. manat

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/source/agriculture/.

Qrafik 2-də ölkəmizdə fəaliyyət göstərən aqrar-emal müəssisələrinin 2010-2024-cü illər üzrə sayının dinamikası təhlil olunmuşdur. Göründüyü kimi, təhlil olunan dövr ərzində ümumilikdə aqrar-emal müəssisələrinin sayı 551-dən 946-ya qədər artmışdır və maraqlıdır ki, bu müəssisələrin 900-dən çoxu, yaxud 95,1 %-i qeyri-dövlət müəssisələridir.



Qrafik 2. Azərbaycanda aqrar-sənaye kompleksində fəaliyyət göstərən müəssisələrin sayı, vahid, 2010-2024-cü illər

Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/.

Cədvəl 1-də Azərbaycan Respublikası iqtisadiyyatına 2010-2024-cü illərdə yatırılan investisiyaların ümumi dinamikası və ayrı-ayrı sahələrə cəlb olunan investisiyaların dinamikası təhlil olunmuşdur.

Cədvəl 1-in təhlilindən yanaşsaq, görmək mümkündür ki, 2010-2024-cü illərdə bütün mənbələr üzrə cəlb olunan investisiyaların orta illik həcmi məhz 2015-ci ildə maksimum göstərici kimi qeydə alınmıışdır – 19547,2 mlyn. dollar. Maraqlıdır ki, 2024-cü ildə bu göstəriciyə yaxın bir nəticə diqqət çəkir – 19491,5 mlyn. dollar. Bu bir daha onu göstərir ki, xarici investisiyaların ölkə iqtisadiyyatının müxtəlif sahələrinə, o cümlədən, aqrar sektora, aqrar-emal müəssisələrinə cəlb olunması şərtlərinin və meyarlarının əhəmiyyətli səviyyədə yenilənməsi və bu işlərin dünya təcrübəsinə uyğun şəkildə təşkili olduqca vacibdir.

Cədvəl 1.

Azərbaycan Respublikası iqtisadiyyatına yatırılan investisiyaların dinamikası, mln. dollar (2010-2024-cü illər)

Göstəricilər:	2010	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023	2024
Bütün mənbələr üzrə investisiyalar, (xarici investisiyaları nəzərə almaqla):	**17591,4**	**19547,2**	**14228,0**	**14213,3**	**15221,7**	**14698,0**	**13225,9**	**14890,4**	**17138,3**	**18871,1**	**19491,5**
Daxili investisiyalar	9343,6	8828,1	4066,9	5092,8	6985,2	7568,9	7100,5	7389,3	8385,8	10241,0	11043,9
Xarici investisiyalar, o cümlədən:	**8 247,8**	**10719,1**	**10161,1**	**9120,5**	**8236,5**	**7129,1**	**6125,4**	**7501,1**	**8752,5**	**8630,1**	**8447,6**
Maliyyə kreditləri	3405,9	2210,2	2197,8	1783,3	2880,0	1736,1	1004,4	1531,3	304,5	387,2	638,5
Birbaşa investisiyalar, o cümlədən:	3614,9	7483,1	7323,6	5713,8	4109,1	4275,3	4527,7	4795,3	6275,9	6658,1	7046,2
- Neft sektoru	2955,3	6622,7	5617,4	4900,8	3142,0	3345,2	3922,1	4004,9	4441,9	4657,0	5687,7
- Qeyri-neft sektoru	659,4	860,4	1706,2	813,0	967,1	930,1	605,6	790,4	1834,0	2001,1	1358,5
Neft bonusu	2,0	2,0	0,1	1,4	450,1	450,8	451,6	457,0	452,2	471,0	457,8
Sair investisiyalar	1225,0	1023,8	639,6	1622,0	797,3	666,9	141,7	717,5	1719,9	1113,8	305,1
Ümumi investisiyalarda xarici investisiyaların xüsusi çəkisi, %	46,89	54,84	71,42	64,17	54,11	48,5	46,3	50,4	51,0	45,7	43,3

Qeyd: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/

Qrafik 3-də isə Azərbaycana 2010-2024-cü illərdə aqrar sfera və onun müəssisələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların dinamikası təhlil olunmuşdur.



Qrafik 3. Azərbaycana 2010-2024-cü illərdə aqrar sfera və onun müəssisələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların dinamikası, mln. manat
Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/.

Qrafik 3-dən çıxış etsək, görmək mümkündür ki, 2010-2024-cü illərdə aqrar sektorun bütün fəaliyyət sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmi o qədər də sabit olmayıb. Belə ki, 2010-cu ildə bu göstərici 431,0 mln. manat olmuşdursa, 2015-də - 355,4 mln. manat, 2019-cu ildə 769,5 mln. manat, 2020-ci ildə 520,6 mln. manat və 2024-cü ildə isə xeyli səviyyədə azalaraq, 283,1 mln. manat təşkil etmişdir. Buna görə də aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi zərurəti aktuallığı ilə ön plana çıxmışdır və bunlarla bağlı daha təsirli tədbirlərin görülməsinə ehtiyac vardır.

Azərbaycanda aqrar sahədə əsas kapitala investisiya qoyuluşunun azalması ilə bağlı məqamlara diqqət yetirmək istərdik. Belə ki, qeyri-neft sektorunun diversifikasiyasında kənd təsərrüfatı strateji əhəmiyyətə malikdir. Amma, 2024-cü ildə aqrar sahəyə əsas kapitala yönəldilmiş investisiyaların həcmində kəskin azalma baş vermişdir. Son illərdə illik orta hesabla 500 milyon manatdan çox investisiya

yatırılan bu sahədə investisiyaların həcminin azalması ilk növbədə iqtisadi, struktur və qlobal amillərin kompleks təsiri ilə əlaqəlidir. Dövlət büdcəsi xərclərinin optimallaşdırılması kontekstində 2024-cü ildə kənd təsərrüfatına yönəldilən xərclər 2023-cü illə nisbətdə 8%-ə qədər azaldılmışdır.

Aqrar-emal sferasında investisiya mexanizmlərinin adekvatlığının və səmərəlilik səviyyəsinin müəyyənləşdirilməsi vacib hesab olunur. Burada investisiya cəlbediciliyini əks etdirən hesabatların aparılması və daha optimal göstəricilərin müəyyənləşdirilməsi tələb edilir[13]. Praktiki baxımdan yanaşsaq, aqrar-emal müəssisənin investisiya cəlbediciliyinin inteqral göstəricisinin hesablanması düsturu bu qaydada tətbiq oluna bilər:

$$K_{ig} = \sqrt{\sum_{i-1}^{n} \left(1 - \frac{X_{ik}}{X_{iet}}\right)^2} \quad (2.2.1)$$

Burada:

K_{ig} - aqrar-emal müəssisənin investisiya cəlbediciliyinin əmsalı;

n – hesablamada iştirak edən maliyyə əmsallarının sayı;

X_{ik} – k aqrar-emal müəssisəsinin i maliyyə göstəricisinin dəyəri;

X_{iet} – i maliyyə göstəricisinin etalon (nümunəvi) dəyəri.

Bu düstur vasitəsilə aparılan hesablamalar aqrar-emal müəssisəsinin investisiya cəlbediciliyi barəsində müəyyən təsəvvür formalaşdırmağa imkan verər və xüsusilə maliyyə göstəricsinin etalon dəyəri kimi baxıla biləcək səviyyəni müəyyənləşdirər. Etalon nümunəsi hər bir müəssisə üçün daha üstün və yaxşı göstəricilərin məcmusu kimi çıxış edir. Məsələn, etalon kimi o göstəricilər sistemi, yaxud müəyyən obyek qəbul oluna bilər ki, bu halda əks olunan göstəricilər tövsiyə edilən, yaxud normativ xarakter daşıyan göstəricilərə uyğun gəlsin. Müəssisə nə qədər qeyd olunan etalona yaxındırsa, onun reytinqi bir o qədər də artır və investisiya cəlbediciliyi yüksəlir.

Dövlət tərəfindən aqrar-emal sferasına yönəldilən subsidiyaların səmərəliliyi və iqtisadi təsiri ilə əlaqədar olaraq qeyd edək ki,

[13] Буторина, О.В., Шишкина И.В. Инвестиционная привлекательность компании: сущность, сопоставление методик оценки // Вестник ПНИПУ. Социально-экономические науки. 2017. №2. –с. 215.

ölkəmizdə kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi və regional inkişafının intensivləşdirilməsi dövlətin iqtisadi siyasətinin prioritet istiqamətləri sırasındadır.

Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə rəqəmsallaşdırılmış subsidiya mexanizmləri tətbiq olunmuşdur: 1) Bitkiçilik sahəsi ilə bağlı subsidiyalar; 2) Əkin subsidiyası, o cümlədən buğda, pambıq, tütün, şəkər çuğunduru məhsullarının istehsalı üzrə subsidiyalar; 3) Toxum subsidiyaları; 4) Heyvandarlıq sahəsi üzrə subsidiya mexanizmləri: süni mayalanma və cins heyvan subsidiyaları; arıçılıq və ipəkçilik subsidiyaları; 5) İstehsal vasitələrinə və texnikaya görə subsidiya mexanizmləri. Hesab edirik ki, dövlət tərəfindən tətbiq olunan çoxsaylı subsidiyalar aqrar-emal sferasının inkişafına birbaşa müsbət təsir göstərir. Bundan əlavə, aqrar subsidiyalar fermerlərin fəaliyyətinin davamlılığı üçün mühüm maliyyə dayağı funksiyasını yerinə yetirir, istehsal xərclərini azaldır (təxminən bu azalma 40-70% səviyyəsindədir).

Qeyd etmək lazımdır ki, burada müəssisənin investisiya cəlbediciliyinin mütləq və nisbi növlərini fərqləndirmək olar. Mütləq investisiya cəlbediciliyi müəyyən investisiya layihələrə aiddir, nisbi investisiya cəlbediciliyi isə bir sıra göstəricilərlə müqayisədə baxıla bilər: 1) sənayedə orta göstəricilərlə; 2) aqrar-emal sahəsində işləyən başqa müəssisələrin göstəriciləri ilə və 3) investor tərəfindən təyin olunmuş meyarlarla. Belə ki, başqa bir kompleks göstəricilər məcmusu özündə orta çəkili təqdim olunmuş əmsalları birləşdirir.

Burada kompleks investisiya cəlbədiciliyinin reytinq əmsalı ($Əic$) növbəti qaydada hesablana bilər:

$$Əic = \sum_{i=1}^{n} k_i * P_i \quad (2.2.2)$$

burada,

k_i – i – meyarının çəkisi;

P_i - i – meyarının reytinq qiymətləndirilməsi;

n – meyarların sayı

Kompleks investisiya cəlbediciliyinin reytinq əmsalının müəyyənləşdirilməsində məcmu şəkildə yer alan göstəricilər müəssisənin fəaliyyətinin səmərəlilik aspektlərini və onun maliyyə vəziyyətinin dayanıqlığını əks etdirir, bunlar isə reytinq əmsalı üçün etibarlı və ciddi baza kimi çıxış edirlər.

Ölkəmizdə aqrar-emal sferasında investisiya mexanizmlərinin müasir adekvatlıq səviyyəsini nəzərə alsaq, bir qrup məsələlər daha çox aktuallaşır. Hesab edirik ki, ilk növbədə, ölkəmizin aqrar-emal müəssisələrinin mövcud investisiya mexanizmlərinin qlobal təhdidlərdən yaranan çağırışlara uyğun şəkildə tənzimlənməsi tədbirləri sürətləndirilməlidir.

Dissertasiya işinin **"Azərbaycanda aqrar-emal sferasının investisiya mexanizmlərinin təkmilləşdirilməsi və tənzimlənməsi yolları"** adlı **üçüncü fəsildə** investisiya mexanizmlərinin təkmilləşdirilməsi üzrə qanunvericilik bazasının gücləndirilməsi məsələləri, aqrar-emal sferasının investisiya cəlbediciliyinin artırılması istiqamətləri və investisiya mexanimzlərinin strateji yol xəritəsinə uyğun tənzimlənməsi yolları verilmişdir.

Qeyd edək ki, bir çox kənd təsərrüfatı və aqrar məhsulların qeyri-neft ixracında payı ildən-ilə yüksəlir və bu sırada ön cərgələrdə yerləşməkdədirlər. Yerli büdcələrin yaxud mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri hesabına investisiya-innovasiya layihələrinin reallaşdırılması xeyli çətin görünür. Belə şəraitdə ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"si çərçivəsində bir sıra tədbirlərin reallaşdırılması təmin olunmuşdur[14].

Strateji Yol Xəritələrindəki (2016) "100 investisiya layihəsi" hədəfinə dair rəsmi statistik mənbələrdən yanşmaqla, qeyd etmək olar ki, bu vaxta qədər 550-dən çox layihənin icrasına tam olaraq başlanılmışdır. Bu layihələrin maliyyələşdirilməsi məqsədilə 632 investisiya təşviqi sənədi çərçivəsində maliyyə və gömrük güzəştləri verilmişdir. Amma, cəmisi 80-ə yaxın layihə infrastruktur və texnoloji qurulma mərhələsindədir. Bu layihələr çərçivəsində cəlb edilmiş özəl investisiyaların həcmi 4 milyard manat təşkil edir. Dövlət tərəfindən idxal olunan texnoloji avadanlıqlara görə sahibkarlara 338 milyon ABŞ dolları məbləğində vergi və rüsum güzəştləri edilmişdir.

[14]Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016. – 177 s.


Ölkədə investisiya mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi və bu istiqamətlərdə islahatların sürətləndirilməsi tədbirləri hələ 1990-cı illərin ortasından başlamışdır. Həmin islahatların reallaşdırılması aqrar islahatlar barəsində qanunvericilik aktının qəbul edilməsindən, yəni 18 fevral 1995-ci ildə "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunmasından sonra baş tutmuşdur[15].

Sxem 3-də Azərbaycanda qlobal kontekstdə aqrar-emal sferasının investisiya cəlbediciliyinin artırılması istiqamətlərinin blok-sxemini hazırlamışıq və hesab edirik ki, yaxın perspektivdə bu istiqamətlərin reallaşdırılması və təsirli tədbirlərin görülməsi aqrar-emal sferasının investisiya cəlbediciliyinə müsbət təsir göstərə bilər.

Ölkəmiz müasir dövrdə geosiyasi və geoiqtisadi kontekstdə yeni reallıqlarla və çağırışlarla üz-üzə qalmışdır. Böyük Qarabağ zəfərindən sonra, işğaldan azad olunmuş ərazilərdə iki yeni iqtisadi rayon – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Bu iqtisadi rayonların inkişaf etdirilməsi istiqamətində strateji hədəflər qarşıya qoyulmuşdur və hesab ediri ki, bu proseslərdə aqrar sferanın inkişafının yüksək səviyyədə təşkili, o cümlədən rəqabətqabiliyyətli aqrar-emal müəssisələrinin yaradılması ölkəmiz üçün strateji əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərin ölkənin təsərrüfat dövriyyəsinə cəlb edilməsi iqtisadi rayonların bölgüsünün yeniləşdirilməsini, məhsuldar qüvvələrin və resursların daha dəqiq, rasional yerləşdirilməsi və bölüşdürülməsini zəruri edir.

Hər bir iqtisadi rayonun özünəməxsus ixtisas sahələri və xüsusiyyətləri vardır. Burada müxtəlif amillər, o cümlədən coğrafi, təbii və iqtisadi amillər daha böyük önəm daşıyır. Əhalinin məşğulluğunun xüsusiyyətləri, adət-ənənələri, əhalinin milli tərkibi, iqtisadi rayonların planlı və nizamlı idarə edilməsi, burada zəruri olan prioritet layihələrin hazırlanması və reallaşdırılması, dövlət tərəfindən maliyyə-investisiya mexanizmlərinin hazırlanması və tətbiqi önəmli şərtlərdəndir.


[15]Aqrar islahatın əsasları haqqında Azərbaycan Respublikasının Qanunu // Bakı: – 18 fevral 1995-ci il, № 976.



Sxem 3. Azərbaycanda qlobal kontekstdə aqrar-emal sferasının investisiya cəlbediciliyinin artırılması istiqamətlərinin blok-sxemi

Mənbə: müəllif tərəindən hazırlanmışdır.

Sxem 4-də Aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsi üzrə Fəaliyyət Strategiyasının mühüm tərkib elementləri və mexanizmlərini vermişik.



Sxem 4. Aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsi üzrə Fəaliyyət Strategiyasının mühüm tərkib elementləri və mexanizmləri

Mənbə: müəllif tərəfindən hazırlanmışdır

Məlumdur ki, aqrar emal sferasında investisiya mexanizmlərinin səmərəliliyini ölçməkdən ötrü həm maliyyə, həm də bu sahə üçün xarakterik olan əməliyyat, resurs və sosial-iqtisadi göstəricilərdən istifadə olunmalıdır. Nəzərə almaq lazımdır ki, aqrar emal sferası yüksək risk, mövsümlülük və xammaldan birbaşa asılılıq xüsusiyyətlərinə malikdir. ROI (Return on Investment) modeli, yəni investisiyanın gəlirliliyi metodu qoyulmuş ümumi investisiya kapitalına nisbətdə əldə olunan xalis mənfəəti ölçür. NPV (Net Present Value), başqa sözlə Xalis indiki dəyər metodu vasitəsilə investisiya layihəsinin gələcək pul axınlarının hazırkı dəyəri ilə ilkin investisiya xərcləri arasındakı fərqi müəyyənləşdirmək mümkündür. PP (Payback Period) metodu isə İnvestisiyanın geriödəmə müddəti ilə bağlıdır, yəni qoyulan kapitalın neçə il ərzində geri qayıdacağını ölçmək mümkündür.

Bunlarla bərabər, qlobal təsirlərdən yaranan bir çox yeni çağırışlar fərqli yanaşmaları tələb edir və ön plana etibarlılıq, çeviklilik və səmərəlilik məsələləri keçir. Bu şəraitdə aqrar-emal sferasının investisiya mexanizmlərinin təkmilləşdirilməsi və tənzimlənməsi tədbirlərinə böyük ehtiyac yaranır. Bu mexanizmlər son illərdə strateji yol xəritələrinə uyğun olaraq müəyyən qədər tənzimlənmişdir, amma bildirdiyimiz kimi pandemiya bu proseslərin dərinləşdirilməsinə öz mənfi damğasını vurmuşdur.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə başlanan quruculuq və dirçəliş tədbirləri, geniş həcmli işlərin görülməsi, böyük infrastruktur şəbəkəsinin yaradılması və bunlarla bağlı aqrar-emal müəssisələrinin ölkə iqtisadiyyatında rolunun xeyli artması bu müəssisələrin investisiya mexanizmlərinin maksimum tənzimlənməsini şərtləndirir.

Bu qeyd edilənlərlə əlaqədar olaraq, aqrar-emal sferasının fəaliyyətinin təkmilləşdirilməsi baxımından, həmçinin fəaliyyət strategiyasının tərkib elementlərinin optimal müəyyənləşdirilməsi, reallaşdırılması nöqteyi-nəzərindən bir qrup tədbirləri və mexanizmləri fərqləndirmişik:

− İlk növbədə, son illərin strateji hədəflərindən irəli gələn prioritetlər nəzərə alınmaqla, aqrar-emal sferasının investisiya mexanizmlərinin hazırkı qlobal problemlər kontekstində bir daha yenidən tənzimlənməsinə və təkmilləşdirilməsinə ehtiyacın olduğu

qənaətindəyik;

− Yeni şəraitdə müvafiq çağırışlara uyğun olaraq, ölkədə aqrar-emal müəssisələrinin inkişaf problemləri və mövcud investisiya mexanizmləri yenidən baxılmalı, bu sahədə dövlət dəstəyi alətlərinin yenilənməsi təmin olunmalıdır;

− aqrar-emal müəssisələrinin fəaliyyətlərinin genişləndirilməsi hesabına və bu istiqamətlərdə investisiya layihələrinin daha fəal şəkildə icrası sayəsində idxaləvəzedici sahələrin inkişafının və ixracyönlü məhsulların sitehsalının artırılması prosesləri sürətləndirilməli və bunlarla bağlı təsirli tədbirlər görülməlidir;

− işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin təbii və iqtisadi resurs potensialından məhsuldar istifadə edilməsində daxili və xarici investisiyaların mühüm rolu nəzərə alınmaqla, bu sahənin və onun aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin maksimum stimullaşdırıcı olması tədbirlərinin görülməsinə ehtiyac vardır.

Beləliklə, hesab edirik ki, təklif olunan Fəaliyyət Strategiyasındakı yanaşmalar və mexanizmlər aqrar-emal sferasının fəaliyyətinin daha səmərəli təşkilində, bu sferanın müəssisələrinin investisiya cəlbedicliyinin artırılmasında və bununla bağlı investisiya strategiyalarının işlənməsində əsas götürülən investisiya mexanizmlərinin səmərəliliyinin yüksəldilməsində faydalı olacaqdır.

Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir:

1. Nəzəri və metodoloji aspektlərdən, yanaşmalardan çıxış etməklə, hazırda ölkənin aqrar-emal müəssisələrində mövcud olan investisiya mexanizmlərinin müasir dövrün tələblərinə uyğun yenilənməsi və təkmilləşdirilməsi gecikdirilmədən təmin edilməlidir. Ölkəmizdə mühüm iqtisadi fəaliyyət sahələrindən olan aqrar sahənin inkişafının və rəqabətqabiliyyətliliyinin yüksəldilməsində əhəmiyyətli funksiyaları yerinə yetirən aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin tənizmlənməsi problemlərinin həll edilməsi və bununla bağlı maksimum səmərəli fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi məsələlərinə daha çox diqqət yönəldilməlidir.

2. Ölkədə investisiya siyasətinin formalaşan mexanizmləri və

elementləri qlobal iqtisadi çağırışlar kontekstində təkmilləşdirilməli, regional strukturu olmaq şərtilə investisiya fondlarının və birliklərinin yaradılması, onların fəallığının təmin edilməsi yaxın dövr üçün strateji vəzifələrdən biri kimi baxılmalıdır. Bu halda iqtisadi fəaliyyət subyektlərinin, o cümlədən aqrar-emal müəsssiələrinin maliyyə-investisiya resurslarına əlçatanlığı imkanları genişləndirilmiş olar.

3. Aqrar-emal sferasının investisiya mexanizmlərinin təkmilləşdirməsi problemlərinin həlli üçün bir qrup məsələlərə daha ciddi önəm verilməlidir: 1) aqrar-emal müəssisələrinin xammal və digər resurs potensiallarından çıxış etməklə, uzunmüddətli dövrü əhatə edən investisiya strategiyası modeli işlənib hazırlanmalı və onun tətbiqinə nail olunmalıdır; 2) aqrar-emal müəssisələrinin istehsal və ixrac potensiallarına uyğun optimal investisiya proqramları və mexanizmləri dövriyyəyə cəlb edilməlidir və 3) ölkəmizin aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi proseslərinə dünya səviyyəsində bu sahədə ixtisaslaşmış kompaniyaların, o cümlədən investisiya fondlarının və təşkilatlarının cəlbedilməsi təmin edilməsi səmərə verə bilərdi.

4. Qeyri-neft sektoru sahələrinə, o cümlədən aqrar sferaya, onun aqrar-emal müəssisələrinə investisiya axınının zəif olduğunu qeyd etmək lazımdır. Bunun müxtəlif səbəbləri ilə yanaşı, qanunvericilik aktlarında və təşviqedici sənədlərdə boşluqların olmasını, stimullaşdırıcı mexanizmlərin təkmilləşdirilməsi zəruridir.

5. Dövlət tərəfindən investisiya siyasətinin və fəaliyyətinin iqtisadi mexanizmləri vasitəsilə tənzimlənməsi təcrübəsi daha çox diqqət çəkir və onları bu cür ümumiləşdirmişik: 1) dövlət tərəfindən məqsədli şəkildə investisiyaların yatırılması; 2) konkret olaraq fəaliyyət istiqaməti üzrə investisiyaların yönəldilməsi; 3) hər hansı bir fəaliyyət növü üzrə və yaxud sistem əhəmiyyətli iri müəssisələr kompleksinin reabilitasiyası məqsədilə investisiyaların cəlb olunması; 4) müxtəlif mənbələrdən kreditləşdirmə vasitəsilə investisiyların formalaşdırılması; 5) lizinq vasitəsilə; 6) fond əməliyatları hesabına investisiyaların təşkili; 7) planlaşdırma və proqramlaşdırma formasında investisiyaların istiqamətləndirilməsi; 8) dövlət tərəfindən sahibkarlığın stimullaşdırılması və yaxud dövlət

sahibkarlığı formasında investisiya axınlarının yönəldilməsi.

6. İnvestisiya qoyuluşlarının stimullaşdırılması və motivasiyalaşdırılması dövlət dəstəyi mexanizmləri dövrün aktual tələblərinə adekvat olaraq daha dərin təkmilləşdirilməli və tətbiq olunmalıdır.

7. Aqrar-emal müəssisələrinin maliyyə-kredit və investisiya resurslarına əlçatanlığı ən yüksək səviyyədə nəzərə alınmalı və strateji yanaşmalara üstünlük verilməlidir.

8. Dövlət tərəfindən yönəldilən əsaslı kapital qoyuluşlarının və məqsədli dövlət investisiyalarının istifadə mexanizmləri və yanaşmaları hazırkı yeni çağırışlara uyğun şəkildə yenilənməlidir.

9. Hesab edirik ki, postpandemiya dövründə və torpaqlarımızın işğaldan azad olunması ilə əlaqədar yeni reallıqları özündə əks etdirən şəraitdə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaranması ilə bağlı yüksək prioritetlik təşkil edən hədəflər konteksində ölkəmizdə investisiyaların təşviqi, təşkili, xüsusilə xarici investisiyaların cəlbi üçün məqsədli fəaliyyət proqramının və strategiyasının hazırlanması, o cümlədən aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsinə yeni yanaşmaların ortaya qoyulması və əsaslandırılmsı, bu istiqamətdə işlək mexanizmin tətbiq edilməsi, müəyyənləşdirilən güzəştlərin stimullaşdırıcı xarakterinin maksimum dərinləşdirilməsi və potensial investorlara təqdimetmə tədbirlərinin intensiv olaraq həyata keçirilməsi daha çox səmərə verə bilər.

İşin predmetinə uyğun problemlərin mahiyyətindən və məzmunundan yanaşmaqla, aqrar-emal sferasının investisiya mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsi üzrə Fəaliyyət Strategiyasının mühüm tərkib elementləri və adekvat mexanizmləri üzrə irəli sürdüyümüz təkliflərin praktiki fəaliyyət proseslərində az da olsa faydalı olacağına ümid edirik.

Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:

1. Aqrar-emal müəssisələrində investisiya mexanizmlərinin tənzimlənməsi problemləri və istiqamətləri // – Bakı: Elmi Əsərlər jurnalı (AMEA İqtisadiyyat İnstitutu), 2018, № 01. – s. 200-207.

2. Aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi yolları // – Bakı: Elmi Əsərlər jurnalı (AMEA İqtisadiyyat İnstitutu), 2018, № 02. – s. 168-172.

3. Müasir dövrdə aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin təkmilləşdirilməsi problemləri / Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 01 iyun 2018-ci il. – s. 542-547.

4. Важность совершенствования основных механизмов инвестиционной привлекательности предприятий агропереработки в Азербайджане // – USA, Philadelphia: Technology and science. Международный научный журнал ISJ Theoretical & Applied Science, – 2018, 07 (63). – стр. 206-215.

5. Aqrar-emal müəssisələrində investisiya mexanizmlərinin qiymətləndirilməsi məsələləri // – Bakı: "Kooperasiya" jurnalı, 2018, № 3. – s. 82-92.

6. Aqrar-emal müəssisələrinin investisiya cəlbediciliyinin yüksəldilməsi yolları // – Bakı: "Audit" jurnalı, 2018, №3. – s. 76-87.

7. Aqrar-emal müəssisələrində məhsul istehsalının artımında investisiyaların rolu // – Bakı: AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş "İqtisadi artim və ictimai rifah" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, 18 oktyabr 2018. – s. 462-467.

8. Azərbaycanda strateji yol xəritəsi kontekstində aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin gücləndirilməsi istiqamətləri // – Bakı: "Audit" jurnalı, 2019, № 04. – s. 49-60.

9. Qlobal maliyyə çağırışları şəraitində aqrar-emal müəssisələrinə investisiya mühitinin təkmilləşdirilməsinə strateji yanaşmalar // – Bakı: "Geostrategiya" jurnalı, 2019, № 04.– s. 88-92.

10. Müasir dövrdə aqrar-emal müəssisələrində investisiya cəlbediciliyinin yüksəldilməsi problemləri və həlli istiqamətləri. // – Bakı: Doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransı. AMİU, 3-4 dekabr 2019-cu il. – s. 381-382.

11. Aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin

tənzimlənməsinin nəzəri əsasları və metodoloji xüsusiyyətləri // – Bakı: AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, 2020, № 04. – s. 93-101.

12. Azərbaycanda aqrar-emal müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində investisiya cəlbediciliyinin aktual aspektləri // – Sumqayıt: "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" Beynəlxalq Elmi Konfransın materialları Sumqayıt Dövlət Universiteti, 8-9 iyul 2020-ci il. – s.140-144.

13. Pandemiya və postpandemiya dövründə aqrar-emal müəssisələrinin logistika infrastrukturunun gücləndirilməsinin əhəmiyyəti // – Sumqayıt: "Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu" mövzusunda Respublika elmi konfransı. Sumqayıt Dövlət Universiteti. 22–23 oktyabr 2020-ci il. – s. 276-279.

14. Актуальные проблемы регулирования инвестиционных механизмов предприятий агропереработки Азербайджана // – Москва: Финансовая экономика, 2020, №12. – стр. 133-138.

15. Стратегические вопросы совершенствования инвестиционных механизмов предприятий агропереработки Азербайджана в новых условиях // – Москва: II Международной научно-практической конференции "Современные аспекты научных исследований". 23 марта 2021/ Актуальные научные исследования в современном мире. Выпуск 3(71). Часть 2. – стр. 70-76.

16. Aqrar-emal müəssisələrində investisiya siyasətinin innovativ yanaşmalar əsasında formalaşdırılması // – Bakı: "Yeni reallıqlar şəraitində azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 6 dekabr 2025-ci il. – s. 557-562

17. Kənd təsərrüfatı emalı müəssisələrində investisiya siyasətinin innovativ modernləşdirilməsi // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnalı, – 2026, № 01. – s. 80-74.



Dissertasiyanın müdafiəsi 9 dekabr 2026-cı il, saat 16^{00}-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi, 93

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 7 noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.11.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 43381 işarə

Tiraj: 100